**Gülarə Aslanova**

# Azərbaycan xalq mahnılarının fortepiano üçün işləmələri

**ADPU-nun Tədris Metodiki Şurasının 17 yanvar 2020-ci il tarixli iclasının qərarına əsasən çap edilir (pr № 4)**

**Bakı-2020**

***Dərs vəsaiti ADPU-nun 100 illiyinə və***
***Musiqi kafedrasının 40 illiyinə ithaf olunur.***

*Elmi redaktoru :* *Z.K.Abdullayeva*
*sənət.üzrə fəlsəfə doktoru,professor*

*Müəllif:* *baş müəllim G.Ç.Aslanova*

*Rəyçilər:* *fəl.üz.fəl.dok.dos.L.X.Həsənova*
*sən.üz.fəl.dok.prof.K.K.Dadaşzadə*

# ÖN SÖZ

Avropa miqyasında XIX əsrin axırı XX əsrin əvvəlində üç böyük bəstəkar: Debüssi, Bartok və Stravinskinin fortepiano yaradıcılığının təsiri altında fortepiano alətinə yanaşmada yeni avropa üslubundan fərqli tembr səslənməsi əldə edilmişdi. Məhz fortpeiano işləmələrində Avropa və milli musiqi mədəniyyətinin sintezinin tapılması yollarının, bunun da əsas faktoru olan harmoniya oldu, milliliyi itirmədən, ümumi, qeyrimilliliynən birləşərək, yeni milli fortepiano üslubunun yaranmasına təkan verdi.

İnstrumental (fortepiano) pyesi janrı, mahnı materialına əsasılnaraq yeni mahnı-romans və ya romans-mahnı ("nəğməli romans") kimi janr yaranır.

Rus bəstəkarları Qlinka, Balakirev, Borodin, Rimskiy, Korsakov, Lyadovun əsər və işləmələrində millilikdən avropa üslubuna harmoniya vasitəsilə yaxınlaşmasına və uyğunlaşmasına aparan yolu izləmək olar.

1927-ci ildə çap olunmuş "Azərbaycan Türk el nəğmələri" toplusu yeni milli fortepiano "folklor simasının" yaranmasında Ü.Hacıbəyli və M.Maqomayev düzgün istiqamət verdilər.

Mahnıların işləmələri vasitəsilə müəlliflər iki məqsəd güdürdü:

Birinci – geniş musiqi sevərlər auditoriyası və professional sənətkarların pianizmə cəlb etməsi.

İkinci – musiqinin xarakterini tam qoruyaraq və sözlərlə ehtiyatla davranaraq, bununla belə mahnının obrazının milli spesifikasını (səs idealı) vurğulamaq. Bu məqsədlə müəlliflər ilk olaraq xalq çalğı alətlərinin (saz, tütək, dəf, nağara və s.) səslənməsinə yaxın tembr analogiyalara əl atırlar.

Üz.Hacıbəyli və M.Maqomayevin birinci xalq mahnılarının işləmələri toplusundan sonra çoxsaylı təlim –pedaqoji xarakterli instrumental pyeslər araya gəldi. Bu musiqi geniş kütləyə yönəlib və məktəbə, ailəyə, xalqın və musiqi sənətinin geniş əlaqələrinə qulluq edir.

Geniş kütlə üçün fortepiano işləmələri janrı A.Zeynallının adı ilə bağlıdır.

Onun "Uşaq suitası"ndan olan iki fortepiano miniatürü- "Uşaq və buz" və "Qoyunlar" təlim-pedaqoji xarakterli pyeslərdir. Belə, "Uşaq və buz" miniatürində xalq mahnısını rəqs musiqisinə xas olan 6/8 ölçüsündə olan akkompanement müşayiət edir. Burada aksentlər vasitəsilə zərb aləti (nağara) və ya əl çalmaq illüziyası yaradır. Ü.Hacıbəyli və M.Maqomayev toplusundan sonra Azərbaycan xalq mahnılarının müxtəlif işləmələri arasında 1957-ci ildə H.Xanməmmədovun "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün): "Bənövşə" (Qax r-nu), "Maralım, ceyranım" (Zaqatala r-nu), "Ceyran balam" (Zaqatala r-nu);

"Qoyunlar" mahnısında faktura melodiya və akkompanement baslarda ostinato hesabına (balabanın funksiyasını görərək), bir növ üçsəslilik yaradır.

Ayrı-ayrı illərdə Ü.Hacıbəyli və M.Maqomayev toplusundan sonra respublikada Azərbaycan xalq mahnılarının müxtəlif işləmələri arasında 1957-ci ildə H.Xanməmmədovun "Azərbaycan xalq mahnilari"(fortepiano ilə oxumaq ücün):"Bənövşə"(Qax r-nu),"Maralım,ceyranım"(Zaqatala r-nu),"Ceyran balam"(Zaqatala r-nu);

1957-ci ildə S.Hacıbəyov Azərbaycan xalq melodiyaları (not yazısı və fortepiano üçün köçürmə)

1959-cu ildə M.Əhmədovun "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün): "Gözəlim sənsən", "Gəl, gəl".

1955-ci ildə F.Əmirovun "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün): "Küçələrə su səpmişəm", "Ay Dilbər", "Qoy gülüm gəlsin, ay nənə", "Evləri var xana-xana".

1961-cı ildə nəşr olunmuş bəstəkar M.Əhmədovun "İkisəsli polifonik pyesləri" (Azərbaycan xalq mahnıları əsasında) adlı toplusunda səsaltı, sərbəst imitasiya üsullardan istifadə edilmişdir.

Gənc pianoçuların repertuarında F.Əmirovun "Sona xanım" mahnısında ("Lirik mahnı") müəllif milli musiqimizə xas olan variasiya forma quruluşuna müraciət edir: mövzu-birinci bənd, variasiya –ikinci.

Bəstəkarlar E.Nəzirova, Ə.Abbasov, F.Quliyevanın və b. folklor nümunələrinin işləmələri iki istiqamətdə inkişafın təzahürünü açıq – aydın

nümayiş etdirir. Bir tərəfdən romantik (pedal) səsaparma (legato və s.) üslubu, o biri tərəfdən zərb-pedalsız üslub.

Bəstəkar E.Nəzirovananın Azərbaycan xalq melodiyalarının fortepiano üçün işləmələri (I-1962,II-1963) məcmuəsi iki dəftərdən ibarətdir. 8 pyesdən dördü-romantik (pedallı) və dördü-zərbi-pedalsızdır.

Fortepiano pyesi janrında bəstələnən əsərlər arasında bəstəkar S.İbrahimovanın "Azərbaycan xalq mahnı və təsnifləri mövzularında fortepiano üçün 15 pyes" məcmuəsini misal gətirə bilərik. İşləmə üçün seçilmiş bütün mahnılar mülayim və canlı tempdə olduğundan, bəzi hallarda önə onların oynaq xarakteri çıxır. Mahnıların əksəriyyəti zərbi-rəngarəng fortepiano üslub formasında yazılıb.

F.Quliyevanın "Foretpiano üçün polifonik dəftər" pyes toplusu yeddi qədim rəqslərdən ibarət və barokko stilində (neoklassisizm) yazılıb.

Yalnız birinci pyes ("Preludiya") S.Rüstəmovun məcmüəsindən götürülmüş "Bağçadan gələn səs" sırf xalq mahnısıdır. Pyesdə neoklassisizmin əsas əlamətləri milli xalq-professional düşüncə tərzi ilə sintezi müəllifin nailiyyətləri hesab oluna bilər.

1969-cu ildə M.Mirzəyevin "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün): "Azərbaycan maralı", "Nəbi", "Qara tellər", "Bağçada gül", "Gözəlim sənsən".

1984-cü ildə yazılan "Fortepiano miniatürlər toplusu" bəstəkar Z.Bağırovun ən son əsərlərindəndi. Toplu müxtəlif janrlarda yazılan 18 pyesdən ibarətdir, onlardan biri (13) "Qubanın ağ alması" xalq mahnısının işləməsidir. Xalq ənənəsinə uyğun olaraq, bəstəkar melodiyanı variasiya üslubunda işləyib. Mahnı 3 hissəli formada yazılıb və dörd müxtəlif həcmli və musiqi materialına müəllif tərəfindən sərbəst yanaşması ilə seçilir.

Bunların arasında ən çox mahnını əhatə edənlərdən 2000-ci ildə L.M.Abbasovanın "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün) və 12 xalq mahnısından ibarət toplu (I cild) və ardıca eyni həcmdə olan ikinci cild xalq mahnıları.

Bundan başqa müxtəlif illərdə əksər bəstəkarlarımızın xalq musiqisinə müxtəlif formada müraciətləri olub.

İşləmələrə gəldikdə, müxtəlif alətlər üçün olan işləmələrdən başqa bir sıra xor işləmələrini də misal gətirmək olar.

1962-ci il Azərbaycan xalq mahnıları: qarışıq xor üçün işləyəni C.Cahangirov.

1963-cü il Azərbaycan xalq mahnıları. F-no ilə qarışıq xor və solo ifa çün işləyəni R.Mustafayev.

1963-cü il Azərbaycan xalq mahnıları. Fortepiano və qarışıq xor və solo üçün işləyəni N.Əliverdibəyov "Səndən mənə yar olmaz", "Gözəlim istərəm", "Ay gözəl", "Dağıstan".

Beləliklə, görürük ki xalq mahnılarına olan maraq heç vaxt tükənməyib və bundan sonra da güclü olacaq. Xalq mahnılarının işləməsinin əsasını qoyan Ü.Hacıbəyov və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" məcmuəsindən başlayan bu iş illər boyu inkişaf edib. Müasir zamana gəlib çatıb.

Folklor nümunələrinin toplanması nə qədər çox olsa, onalrın işləmələrinə olan maraqda ildən ilə artar.

Hal-hazırda musiqi folklorunun işləmələri musiqiçilərin repertuiarında yer tutaraq, onu daha da zəngin və rəngarəng edib. Adi melodiya yazısından fərqli olaraq, işləmələr daha tez auditoriyanın rəğbətini qazanaraq, populyarlaşır. Məhz onların vasitəsilə, xalq musiqisinin dinləyicilər tərəfindən asan qavramasından, geniş kütlələlərə Avropaya məxsus olan və orada geniş yayılan fortepiano alətini kütləvi şəkildə məişətə yeritməsi mümkün olub.

İlk işləmələr nisbətən sadə,bəsit fortepiano fakturaya, harmonik yazıya, tembr rəngarəngliyinə malikdirsə, sonrakı işləmələrdə bu qusurlar aradan götürmək üçün iş aparılıb.

Hal-hazırda işləmələr arasında çox maraqlı, özünə məxsusluğu ilə seçilən əsərlər var. Xasiyyətcə çox demokratik olan mahnı işləmələri həm gündəlik məişətdə həm də səhnələrdən səslənir.

Təqdim olunan dərs vəsaiti Azərbaycan xalq mahnılarının fortepiano üçün işləmələrdən ibarətdir. Milli musiqimizə xas olan gözəl,əsasən lirik, həzinli, romantik, bəzən şıltaq, sevinç dolu melodiyalar, onların intonasiya rəngarəngliyi, lad(məqam)-intonasiya və metroritmik(vəzn) təşkili, zəngin və özünəməxsus ənənələrə bağlıdır.

Məlumdur ki,tədris prosesində əsər seçilərkən, tələbənin ümumi bilik səviy-yəsi, texniki bacarşğı, onun istəyi, proqramda olan tələblər nəzərə alınır. Bu tələblərin arasında kicik həcmli əsərlər (pyeslər) yer tutur, klassik Avropa, rus və s. əsərlərlə yanaşı Azərbaycan bəstəkarlarının əsərləri də daxildir.

Təcrübə göstərir ki,milli musiqi əsərləri tələbələrin daha cox marağına səbəb olur və böyuk həvəslə öyrənilir.Xalq mahnılarının öyrənilməsi, bu baxımdan, tələbələrin musiqi duyumunun inkişafına, bədii-estetik zövqünün formalaşmasına, öz köklərinə ,Vətənə bağlılıq hissinin möhkəmlənməsində mühüm rol oynayır.

Təqdim olan vəsaitdən "Fortepiano" fənni olan bütün ali, orta ixtisas tədris müəssisələrinin müəllim və tələbələri faydalana bilər.Bundan əlavə"Xalq musiqisinin not tərtibatı","Azərbaycan xalq musiqisinin əsasları","Azərbaycanın musiqi tarixi","Xalq yaradıcılığı" kimi fənnlərdə istifadə oluna bilər.

# "Alma"

İşləyəni: Gülarə Aslanova

Allegretto ♪ = 80






**Alma almaya bənzər,**
**Alma ağacı gözəl.**
**Bu yerlərin qızları**
**Ahu ceyrana bənzər.**
**Ay balam, öz gülümsən,**
**Gülümsən, bülbülümsən -**
**Bir yandan yaxın qonşum,**
**Bir yandan sevgilimsən.**

# "Ay bəri bax, bəri bax"

İşləyəni: Gülarə Aslanova






**Pəncərədən daş gəlir, ay bəri, bax bax**
**Xumar gözdən yaşdan gəlir, ay bəri bax, bəri bax**
**Səni mənə versələr, ay bəri bax, bəri bax**
**Hər görənə xoş gələr, ay bəri bax, bəri bax, balam**
**Ay bəri bax, bəri bax, balam**
**Ay bəri bax, bəri bax, gülüm**
**Ay bəri bax, bəri bax**

# "Ay Laçın"

İşləyəni: Gülarə Aslanova






Araz axar su ilə
Dəstə - dəstə gül ilə
Mən yarımı sevirəm
Şirin - şirin dil ilə

Ay Laçın, can Laçın
Mən sənə qurban Laçın

Bağçaların barı gül
Yarı qönçə, yarı gül
Gec açıldın, tez soldun
Açmayaydın barı gül

Ay Laçın, can Laçın
Mən sənə qurban Laçın

# "Ay sallanıb gedən yar"

İşləyəni: Gülarə Aslanova

**Allegretto** ♩ = 120






**Ay sallanıb gedən yar,**
**Ayaq saxla, sözüm var.**
**Qoy bir baxım doyunca,**
**Gözlərində gözüm var.**

**Nəqarət:**
**Yerişinə balam,**
**Gülüşünə balam,**
**Baxışına qurban.**
**Bağrımı qan eləmə gəl,**
**Sevgili canan gəl,**
**Ay incəbelli, gəl,**
**Ay qaratelli, gəl,**
**Ay şirindilli, gəl.**

# "Bülbülün geydiyi sarı"

İşləyəni: Gülarə Aslanova






**Bülbülün geydiyi sarı,**
**Mən ağlaram zarı-zarı.**
**İtirmişəm nazlı yarı,**
**Sən ağlama, mən ağlaram.**

**Bülbülün geydiyi atlas,**
**Atlasa iynələr batmaz.**
**Mənim yarım mənsiz yatmaz,**
**Sən ağlama, mən ağlaram.**

# "Dağlarda çiçək"

İşləyəni: Gülarə Aslanova







**Dağlarda çiçək, dərrəm sataram,**
**Bir üzü göyçək hardan taparam.**
**Haray dillərindən, o qara tellərindən,**
**Hərgah izin versən, balam,**
**Öpərəm ləblərindən.**

**Bağlarda alma, dərrəm sataram,**
**Uzaqda durma, gəlləm taparam.**
**Haray dillərindən, o qara tellərindən,**
**Hərgah izin versən, balam,**
**Öpərəm ləblərindən.**

# "Gül açdı"

İşləyəni: Gülarə aslanova

**Moderato** ♩ = 80






**Gül açdı bahar oldu**
**Yar məndən kənar oldu**
**Gülüm, gəl bizə, gəl bizə, gəl, gəl**
**Gözün bənzər nərgizə**

**Belə naz ilə baxma**
**Məni yandırıb baxma**
**Gülüm, gəl bizə, gəl bizə, gəl, gəl**
**Gözün bənzər nərgizə**

# "Küçələrə su səpmişəm"

İşləyəni: Gülarə Aslanova

**Moderato** ♩= 80






Küçələrə su səpmişəm
Yar gələndə toz olmasın
Elə gəlsin, elə getsin
Aralıqda söz olmasın

Samavara od salmışam
İstəkana qənd salmışam
Yarım gedib tək qalmışam
Nə şirindir yarın canı
Nə əzizdir yarın canı...

# "Nə baxırsan yanı - yanı"

İşləyəni: Gülarə Aslanova




**Nə baxırsan yanı-yanı**
**Bala, bala, bala, yar-yar?**
**Olum gözlərin qurbanı,**
**Bala, bala, bala, yar-yar.**
**Əvvəki məhəbbət hanı?**
**Ay balam ey, ay gülüm ey,**
**Gəl, yarım ey, canım ey, ey.**

# "Qaladan qalaya"

İşləyəni: Gülarə Aslanova






**Qaladan-qalaya nar yemək olmaz,**
**Bu gələn sonaya yar demək olmaz.**

**Qalanın dibində bir daş olaydım,**
**Gələnə-gedənə yoldaş olaydım.**

# "Qubanın ağ alması"

İşləyəni: Gülarə Aslanova






**Qubanın ağ alması**
**Yeməyə dağ alması**
**Yarım gələnə qalıb**
**Yaramın sağalması**

**Nəqarət:**
**Ölürəm yar**
**Yanıram yar**
**Sevirəm yar gəl**
**Aman ölürəm yar**
**Yanıram yar**
**Sevirəm yar, gəl**

# "Sona xanım"

İşləyəni: Gülarə Aslanova

**Allegro non troppo** ♩ = 80




**Sona xanım, çıx eyvana**
**Bir bax bu gözəl xanıma**
**Doğrusun söylə mərdana**
**Hüsnü-cəmalı yaxşıdır**

**Altında vardır göy altı**
**Pələng kimi əl-qol atır**
**Bir anda mənzilə çatır**
**Cahi-cəlalı yaxşıdır**

# "Süsən sünbül"

İşləyəni: Gülarə Aslanova

**Allegro non troppo** ♩ = 110






**Süsən sünbül ay gülüm bitirmişəm**
**Mən yarımı ay gülüm itirmişəm**
**Ay gülüm itirmişəm**
**Ömrü başa ay gülüm yetirmişəm**
**Aman gülgəz a balam yarım hanı a gülüm yarım hanı?**

**Nəqarət:**
**Ağ üzdə xalın a gülüm**
**O məh camalın ay gülüm**
**Yandırdı məni ay gülüm**
**Nədir xəyalın**
**Ay gülüm nədir xəyalın**
**Ağ üzdə xalın ay gülüm**
**O məh camalın ay gülüm**
**Yandırdı məni, yandırdı məni, a gülüm**
**Nədir xəyalın, a gülüm, nədir xəyalın?**

**Yar əlindən a gülüm badə içdim**
**Mətləbimə abalam mən yetişdim**
**Ay gülüm mən yetişdim**
**Kəcavəsin mən özüm bəzəmişdim**
**Aman gülgəz, a balam, yarım hanı, a gülüm, yarım hanı?**

# "Evləri var xana - xana"

İşləyəni: Gülarə Aslanova

**Andante** ♩ = 80








**Evləri var xana-xana,**
**Mən kül oldum,**
**Ay aman, ay aman, yana-yana,**
**Aman diləm, diləm, diləm,**
**Yandı canım.**

# "Girdim yarın bağçasına"

İşləyəni: Gülarə Aslanova




29
35
40
46
52
58
mf
f
Ped.
(Ped.)
3




**1-ci bənd:**
**Girdim yarın bağçasına, çiçəklər açmış,**
**O yar mənim ürəyimə yaralar sancmış.**

**Nəqarət:**
**Gəl, gəl, gəl, gözəlim gəl, gəl görüm səni,**
**Əgər qismətim olarsa alaram səni.**

**2-ci bənd:**
**Girdim yarın dəryasına, gəmim dolmadı,**
**Gənc yaşımda bir yar sevdim, mənim olmadı.**

# "Gözəlim sənsən"

İşləyəni: Gülarə Aslanova

**Andantino** ♩ = 75




23
tr
8
Ped.
25
tr
mp
27
30
1.
2.
33
f
dim.




**Gözəlim sənsən,**
**Gözümün nuri.**
**Cənnətdə yoxdur,**
**Sən kimi huri.**
**Öldürür məni,**
**Yarımın cövri.**
**Ona mən yar oldum,**
**Ona mən vuruldum.**
**Yaralıyam dəymə, dəymə,**
**Dəymə, dəymə, dəymə.**
**Gülümn butasın,**
**Əymə, əymə, əymə.**

# "Səndən mənə yar olmaz"

İşləyəni: Gülarə Aslanova






**Səndən mənə yar olmaz,**
**Əhdə vəfadar olmaz.**
**Yüz min il bahar olsa,**
**Bülbülsüz güllər açmaz.**

**Nəqarət:**
**Küsdürmüsən al nazımı,**
**Qışa döndərmə yazımı.**
**Çalıb dindirmə sazımı,**
**Yaralıyam yar, yar.**

# "Yar bizə qonaq gələcək"

İşləyəni: Gülarə Aslanova

**Moderato** ♪ = 160




30
36
43
50
56
tr
Ped.
poco a poco
rit.



1-ci bənd
Piyalələr irəfdədir,
Hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir.

Nəqarət:
Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, gülüm,
Söz verib sabah gələcək.

2-ci bənd:
Samavara od salmışam,
İstəana qənd salmışam,
Yarım gedib tək qalmışam.

Nəqarət:
Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, balam,
Söz verib sabah gələcək.

3-cü bənd
Dara zülfün sal hər yana,
Gözlərin oxşar ceyrana,
Baxdım, qaldım yana - yana.

Nəqarət:
Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, balam,
Söz verib sabah gələcək.

Mündəricat

Ön söz Səh 3

1. "Alma" (Bayatı Şiraz)........8

2. "Ay bəri bax,bəri bax" (Segah)........10

3. "Ay Laçın" ( Bayatı Şiraz)........12

4. "Ay sallanıb gedən yar" (Rast)........14

5. "Bülbülün geydiyi sarı" (Bayatı-Şiraz)........16

6. "Dağlarda çiçək" (Bayatı-Şiraz)........18

7. "Gül açdı" (Şur)........20

8. "Küçələrə su səpmişəm" (Bayatı-Şiraz)........22

9. "Nə baxırsan yana-yana" (Bayatı-Şiraz)........24

10. "Qaladan qalaya" (Rast)........25

11. "Qubanın ağ alması" (Bayatı-Şiraz)........27

12. "Sona xanım" (Rast)........29

13. "Süsən sünbül" (Mahur)........30

14. "Evləri var xana-xana" (Segah)........32

15. "Girdim yarın baxçasına" (Bayatı-Şiraz)........34

16. "Gözəlim sənsən" (Şüştər)........37

17. "Səndən mənə yar olmaz" (Bayatı-Şiraz)........40

18. "Yar bizə qonaq gələcək" (Segah)........42

*Nəşriyyatın direktoru:* *Hüseyn Hacıyev*
*Texniki redaktor:* *Gülbəniz Məmmədova*
*Dizayn:* *Müşfiq Hacıyev*
*Montajçı:* *Elmira İsmayılova*

---

*Çapa imzalanmış 24.02.2020-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 3*
*Sifariş 94, sayı 200*

---

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*Email. Poliqrafiya@mail.ru*